**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

**№** 231 “ 07 ” 11 **2019-cu il**

**13-16 noyabr 2019-cu il tarixlərdə Binəqədi rayon orta ümumtəhsil məktəblərinin bir qrup şagirdinin “Ölkəmizi tanıyaq” tur-aksiyasında iştirakları haqqında**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən “Ölkəmizi tanıyaq” devizi ilə yeniyetmələrin Gəncə şəhəri, Göygöl və Şəmkir rayonları ilə tanışlığı üçün təşkil olunmuş maarifləndirici tur-aksiya çərçivəsində Binəqədi rayonundan olan məktəblilərin də iştiraklarının təmin edilməsi məqsədilə və “Yerli İcra Hakimiyyətləri haqqında” Əsasnamənin 4.13.15və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Q ə r a r a a l ı r a m:**

1. Binəqədi rayonunda fəaliyyət göstərən orta ümumtəhsil məktəblərindən “Ölkəmizi tanıyaq” adı altında təşkil olunacaq tur-aksiyada 40 nəfər olmaqla IX-XI siniflərin nümunəvi şagirdlərindən ibarət qrupun və 5 nəfər müşayiətçilərin siyahısı təsdiq edilsin (siyahı əlavə olunur).

2. “Ölkəmizi tanıyaq” adı altında Binəqədi rayonundan IX-XI sinif şagirdləri üçün Gəncə şəhəri, Göygöl və Şəmkir rayonlarına təşkil olunacaq tur-aksiya ilə əlaqədar olaraq, Binəqədi Rayon İcra Hakimiyyətinin nəzdində aşağıdakı tərkibdə Qərargah yaradılsın:

**Qərargahın sədri:**

| | |
|---|---|
| **Aygün Əliyeva** | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |

**Qərargahın üzvləri**

| | |
|---|---|
| **Nicat Allahverdiyev** | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |

| | |
|---|---|
| **Vüsal Axundov** | Binəqədi rayon Polis İdarəsinin rəis müavini |
| **Namiq Tarverdiyev** | Binəqədi rayon Gənclər və İdman İdarəsinin rəisi |
| **Aslan Mehdiyev** | Binəqədi Rayon İcra Hakimiyyəti<br>yanında İctimai Şuranın sədri |
| **Bəhram Şiriyev** | 276 nömrəli tam orta məktəbin direktoru |
| **Nazir Əliyev** | 314 nömrəli məktəb-liseyin direktoru |
| **Qənirə Sultanova** | 144 nömrəli tam orta məktəbin direktoru |
| **Jalə Pənahi** | 21 nömrəli uşaq poliklinikasının baş həkimi |

3. Qərargaha tapşırılsın ki, keçirilən tur-aksiya çərçivəsində təşkilati məsələləri həll etsin və tur-aksiyanın keçirilmə müddətində Binəqədi Rayon İcra Hakimiyyətinin başçısına mütəmadi olaraq məlumat versin.

4. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyevaya həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri**
**ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN